*Qurbanzadə Azər Ağazeynal oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Kooperasiya Universiteti,*
*Email: azercooperation@hotmail.com*

# QLOBALLAŞMANIN MİLLİ İQTİSADİYYATA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Qloballaşma: üstünlükləri və destruktiv cəhətləri. Qloballaşma prosesi xüsusilə postsənaye cəmiyyətinin inkişaf təzahürləri formasında cəmiyyətimizə və eləcə də bütövlükdə əhalinin məişət həyatına daha çox daxil olur. Xüsusilə kompüter və mobil rabitə şəbəkələrinin inkişafı, internetin formalaşması və sosial şəbəkələrin inkişafı və digər bu kimi amillər bütövlükdə qloballaşmanın cəmiyyətin həyatına təsirini qaçılmaz edir.

Etiraf etmək lazımdır ki, qloballaşma prosesinin özünün müsbət məqamları kifayət qədər çoxdur. Bu ilk növbədə əhalinin dünyagörüşündə dəyişikliklərin baş verməsi, bundan əlavə mobil rabitə və internet şəbəkələrinin vasitəsilə bütövlükdə dünya virtual məkana çıxış imkanlarının genişlənməsi, sosial şəbəkələr vasitəsilə bu və ya digər məhsulların və xidmətlərin sifariş olunması və s. demək olar ki, iqtisadiyyat və bütövlükdə əhalinin məişət həyatında köklü müsbət dəyişikliklər yarada bilmişdir.

Qloballaşma səciyyələndirən ən mühüm məqamlardan biri azad ticarətin dəstək-

lənməsidir. Azad ticarət vasitəsilə istehlakçıların maraqlarına uyğun məhsulların istehlak edilməsi imkanları da yaxşılaşır.

Lakin bütün bunlara baxmayaraq qloballaşma prosesinin özünəməxsus desturuktiv cəhətləri də mövcuddur. Bu baxımdan xüsusilə qeyd etmək yerinə düşərdi ki, əslində qloballaşmanın bütün tərəfləri cəmiyyətin həyatına daxil olmasının neqativ təzahürləri daha çoxdur. Bu prosesə ilk növbədə sosial-iqtisadi aspektdən yanaşdıqda qeyd etmək lazımdır ki, qloballaşma əslində ölkələr arasındakı yaşayış fərqlərini, eləcə də sosial-iqtisadi diferensiasiyanı gücləndirir.

Görkəmli alim i.e.d. A.F.Abbasovun fikrincə, Qloballaşma şəraitində iqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyi dünya ölkələri arasında iqtisadi diferensiasiyanın yaranmasına, bütövlükdə cəmiyyətdə sosial və siyasi qütbləşmənin dərinləşməsinin əhəmiyyətli təsir göstərmişdir. Müasir şəraitdə iqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyi cəmiyyətdə sosial sabitliyin pozulmasına səbəb olmaqla yanaşı, eyni zamanda cinayətkarlığın və digər xoşagəlməz vərdişlərində yaranmasının fundamentlərindən biri kimi çıxış edir. Qaçılmaz reallıq ondan ibarətdir ki, iqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyi artıq müasir cəmiyyətin xroniki xəstəliyinə çevrilmişdir və beynəlxalq təhlükəsizliyə təhdid kimi də dəyərləndirilə bilər. Bu baxımdan elmi məqalədə tədqiq edilən məsələlər müasir dövrün ən aktual problemlərindən biridir (2.s.150). Qloballaşma prosesi eyni zamanda milli iqtisadiyyatın inkişafında da bir sıra hallarda destruktiv təzahürlər yaratmaq və iqtisadi təhlükəsizliyə təhdid yaratmaq iqtidarındadır. İnkişaf etmiş ölkələrin ixracının strukturunda kapital və sənaye tutumlu məsulların daha çox xüsusi çəkiyə malik olması və eləcə də həmin ölkələrdə ÜDM-in strukturunda postsənaye cəmiyyətinin təzahür forması kimi xidmətlərini xüsusi çəkisinin yüksək olması bütövlükdə qloballaşma prosesinin üstünlüklərindən inkişaf etmiş ölkələrin daha çox yararlanmasına gətirib çıxarır. İnkişaf etməkdə olan ölkələrdə isə bu proses demək olar ki, fərqli xarakter daşıyır. Belə ki, inkişaf etməkdə olan ölkələrin ixracın strukturunda əsas etibarilə xammal və resurslar, eləcə də kənd təsərrüfatı və ərzaq məhsulları önəmli rol oynayır. Bu hətta kənd təsərrüfatı və ərzaq məhsullarının xüsusi çəkisinin yüksək olmasını bir hallarda passiv cəhəti kimi xarakterizə etmək olar ki, bəlkə də bu proses nəticə etibarilə idxalın əvəz olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Lakin təhlillər göstərir ki, inkişaf etməkdə olan ölkələrdə ixracın strukturunda kənd təsərrüfatının xüsusi çəkisi bir sıra hallarda o qədər də müsbət saldoya çevrilmir. Bu onunla bağlıdır ki, inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatında kustar, yəni əl əməyindən istifadə hesabına məhsul istehsalı daha yüksək şəkildə xarakterizə olunur. Bundan əlavə inkişaf etməkdə olan ölkələrdə ixracın strukturunda xammal və resursların, o cümlədən təbii ehtiyatların, neft, qaz, dəmir filizi və digər bu kimi məhsulların xüsusi çəkisinin yüksək olması bütövlükdə onların hazır məhsulların idxalından, o cümlədən sənaye kapital tutumlu məhsullarının idxalında asılılığını gücləndirir.

Beynəlxalq münasibətlər sisteminin qloballaşması ilk növbədə beynəlxalq əmək bölgüsünün dərinləşməsini səciyyələndirir və informasiya cəmiyyətinə keçid şəraitində xüsusilə elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsala tətbiqi prosesinin güclənməsi bütövlükdə hər bir ölkənin beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiyasını obyektiv zərurətə çevirir. Qloballaşma prosesinin ən mühüm səciyyəvi cəhətlərindən biri əslində təbəqələşmənin dərinləşməsidir. Bu təbəqələşmə prosesi

nəinki ölkələr arasında eləcə də iqtisadiyyatın strukturunda, daha doğrusu milli iqtisadiyyat daxilində destruktiv tendensiyaların yaranmasına və struktur fərqliliyinin formalaşmasına gətirib çıxarır. Daha doğrusu bir sahənin üstün inkişafı digər sahənin zəif inkişafına səbəb olmaqla yanaşı, eyni zamanda ona gətirib çıxarır ki, əslində kapital və əmək resurslarının daha yüksək səmərəli sahələrə axında baş verir. Bu isə istər iqtisadiyyatın sahə və ərazi kəsimlərində fərqli inkişaf tendensiyalarının yaranması ilə müşahidə olunur. Bütün bunların nəticəsidir ki, dünyanın inkişaf etmiş ölkələri əslində qlobal bazarlarda tam mənası ilə hegemon yer tuturlar. Ümumiyyətlə, qloballaşma prosesinin dərinləşməsi mahiyyət etibariylə kapital və sənaye tutumlu məhsulların daha çox inkişaf etmiş ölkələrdə yerləşməsinə gətirib çıxarır və bu isə həmin ölkələrin adı çəkilən məhsulların ixracından daha çox gəlir götürmələrinə səbəb olur.

Müasir şəraitdə qloballaşma prosesi nəinki iqtisadi, eləcə də kifayət qədər siyasi baxımdan neqativ tendensiyalar doğurmaqdadır. Belə ki, artıq qloballaşma prosesinin dərinləşməsi mahiyyət etibarilə müstəqil hökumətlər üzərində beynəlxalq iqtisadi münasibətlərin nəzarət koalisiyasının genişlənməsinə gətirib çıxarmışdır. Bu proses istər siyasi və istərsə də iqtisadi vasitələrlə gerçəkləşdirilir. Qeyd etmək lazımdır ki, bir sıra hallarda beynəlxalq iqtisadi münasibətlər üzrə ixtisaslaşmış qurumların hökumətlər üzərində tam nəzarəti həm dövlətlərin siyasi və iqtisadi siyasəti və həm də inkişaf etmiş ölkələri təmsil edən transmilli korporasiyalar vasitəsilə də gerçəkləşdirilir. Transmilli korporasiyalar inkişaf etməkdə olan ölkələrin milli iqtisadiyyatının ixrac sektorunda əhəmiyyətli pay sahibinə çevrilməkdədir. Daha doğrusu transmilli korporasiyalar vasitəsiylə təbii ehtiyatların çıxarılması və onların dünya bazarına çatdırılması istiqamətində zəruri səylər göstərilir və transmilli korporasiyalar bütövlükdə inkişaf etməkdə olan ölkələrin milli iqtisadiyyatında baş verən təzahürlərə demək olar ki, tam mənası ilə hakim kəsilir.

İnkişaf etməkdə olan ölkələrin iqtisadiyyatının maliyyə kredit infrastrukturlarının demək olar ki, təkmil xarakter daşımaması mahiyyət etibarilə qloballaşma prosesinin zəruri tələblərinə cavab verməməsi prosesləri özünü daha çox büruzə verir. Bu isə ona gətirib çıxarır ki, inkişaf etməkdə olan ölkələrin milli iqtisadiyyatında davamlı olaraq inflyasiya təhdidləri baş verə bilir və inflyasiya təhdidlərin yaranmasının ən mühüm səbəblərindən biri də əslində beynəlxalq bazar konyukturunda baş verən dəyişikliklər, eləcə də dünyanın siyasi və iqtisadi dəyişiklikləridir. Məsələn, təkcə neftin qiymətində baş verən dəyişiklikləri, eləcədə pandemiya proseslərinin mövcud olduğu şəraitdə neftin qiymətlərinin aşağı düşməsi və hətta sıfır vəziyyətinə düşməsi inkişaf etməkdə olan ölkələrə maliyyə axınlarının məhdudlaşmasına gətirib çıxarmışdır. Ümumiyyətlə qeyd etmək lazımdır ki, dünyada baş verən siyasi proseslərdə milli iqtisadiyyata davamlı olaraq inflyasiya təhdidi yaradır. Məsələn, təkcə Rusiya-Ukrayna müharibəsi dövründə baş verən proseslər bütövlükdə taxıl məhsulları idxal edən ölkələr üçün demək olar ki, əhəmiyyətli təhdid mənbəyinə çevrilmişdi. Məlum olduğu kimi Rusiya və Ukrayna dünyada ən mühüm taxıl ixracçılarından və eləcə də Rusiya neft ixracatçısı kimi çıxış edir. Məhz bütün bunlar mahiyyət etibarilə həm inkişaf etmiş ölkələrin və həm də inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatı üçün təhdidə çevrilir. Neft faktorundan bəhs etsək qeyd etmək lazımdır ki, əslində neftin qiymətinin sürətlə bahalaşması son zamanlar Rusiya neftinə qoyulan embarqo ilə sıx bağlıdır. Bundan əlavə, taxıl yığımı proseslərində əslində Ukraynadakı hərbi proseslərin baş verməsini nəzərə alaraq Uk-

raynanın demək olar ki, ixracçı statusunun pozulmasına gətirib çıxara bilər və bu taxıl məhsulları idxal edən ölkələr üçün indidən bir təhdid yaradan amil kimi çıxış edir. Əslində prosesin kifayət qədər psixoloji məqamları da mövcuddur. Belə ki, dünya bazarında taxıl məhsullarının qiymətlərinin qalxacağı təqdirdə əslində bu proses 3 aya qədər dövrü əhatə edə bilər və belə bir şəraitdə artıq idxalçı ölkələrdə indidən bahalaşma meylləri müşahidə olunur və əhalinin psixoloji inflyasiya gözləntiləri baş verir.

Məlum olduğu kimi inkişaf etməkdə olan ölkələr əslində beynəlxalq ticarətin özünəməxsus xüsusiyyətlərindən kifayət qədər təhdid mənbəyinə çevrilməkdədir. Belə ki, inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatını ixtisaslaşma istiqamətini ənənəvi olaraq əmək tutumlu və enerji tutumlu məhsullar təşkil edir. Bütün bunlar isə mahiyyət etibarilə iqtisadi artımın məhdudlaşmasına səbəb olur və modern texnologiyadan istifadə imkanlarını məhdudlaşdırır. İnkişaf etməkdə olan ölkələrdə modern texnologiyadan istifadə edilməməsinin ən mühüm səbəblərindən biri onunla bağlıdır ki, ilk növbədə hökumətlər tərəfindən bu prosesin stimullaşdırılması istiqamətlənmiş tədbirlər gerçəkləşdirilmir, inkişaf etməkdə olan ölkələrdə elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsala tətbiqi səviyyəsi aşağıdır və iqtisadiyyatın innovasiyalaşdırılmasından bəhs etmək demək olar ki, mümkün deyildir. Həmin ölkələrdə ənənəvi əmək tutumlu məhsullarına üstünlük təşkil etməsi bütövlükdə beynəlxalq ticarət sistemində həmin ölkələrin mövqeyinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə səbəb olur. İnkişaf etməkdə olan ölkələrin beynəlxalq maliyyə bazarlarına inteqrasiyasında da destruktiv tendensiyalar mövcuddur. Bütövlükdə dünya iqtisadiyyatının qan-damarı sayılan pul tədavülü sistemində ABŞ dollarının hakim mövqe tutması təbii ki, inkişaf etməkdə olan ölkələrin rəqabət qabiliyyətinin aşağı olması baxımından bütövlükdə maliyyə davamsızlığı gətirib çıxarır və bu prosesi isə son nəticədə milli iqtisadiyyatın maliyyə yükündə kifayət qədər problemlərin yaranmasına səbəb olur. Bu prosesin ən mühüm səbəblərindən biri ondan ibarətdir ki, dövlət büdcəsi daha çox yüklənir. Bundan əlavə, həmin ölkələrin iqtisadiyyatlarında iri sənaye müəssisələrinin hakim mövqe tutmasının nəticəsidir ki, əslində dövlət büdcəsinə daxil olmaların həcmi aşağı düşür. Bundan əlavə, inkişaf etməkdə olan ölkələrdə kiçik və orta biznes strukturlarının da rəqabətqabiliyyətli də olmaması vəziyyəti mürəkkəbləşdirir. Belə ki, inkişaf etməkdə olan ölkələr üçün milli iqtisadiyyatın kiçik və orta biznes sektoru demək olar ki, ixrac potensialına malik deyildir. Bu prosesin zərərli təsirləri isə ona gətirib çıxarır ki, ixracın strukturunda ənənəvi məhsulların önəmli rol oynayır və bu prosesdə isə dünya ölkələrinin transmilli şirkətləri hakim mövqe tutur. Xüsusilə Afrika ölkələrində qiymətli metalların istehsalı və hasilatı ilə bağlı dünyanın inkişaf etmiş transmilli şirkətlərin hakim mövqe tutmasını buna misal olaraq göstərmək mümkündür.

Vəziyyəti mürəkkəbləşdirən cəhətlərdən biri ondan ibarətdir ki, inkişaf etməkdə olan ölkələr postsənaye cəmiyyətinin uğurlarından demək olar ki, istifadə edə bilmirlər. Kommunikasiya texnologiyalarının zəif inkişaf etməsi, internet sisteminin bir sıra hallarda bir çox inkişaf etməkdə olan ölkələrdə mövcud olmaması və s. həmin strukturların imkanlarından həmin ölkənin əhalisinin və təsərrüfat subyektlərinin istifadə imkanlarını məhdudlaşdırır.

Dünyada inkişaf etməkdə olan ölkələrin sayı 100-dən çoxdur. Burada dünya üzrə ÜDM-in 1/3 hissəsindən bir qədər artıq hissəsi cəmləşmişdir. Statistika göstərir ki, dünya əhalisinin 65%-dən çox inkişaf etməkdə olan ölkələrdə yaşayır. Bütün mineral

təbii resursların 35%-i, istehsakın isə cəmi 16%-i onların payına düşür. (1.s.37) İnkişaf etmiş ölkələrdə insan kapitalına investisiyaların da çox qoyulması mahiyyət etibarilə həmin ölkələrdə insan kapitalı ilə bağlı investisiyaların ÜDM-də daha çox xüsusi çəki təşkil etməsinə gətirib çıxarır. İnkişaf etməkdə olan ölkələrdə isə bu tendensiya demək olar ki, müşahidə edilmir. Həmin ölkələrdə əhalinin əhəmiyyətli hissəsinin təhsilsiz olması və bir sıra hallarda konkret təhsil müddətinin aşağı olması və s. mahiyyət etibarilə insan kapitalının yetişməməsinə gətirib çıxarır. Təsadüfi deyildir ki, son əsr ərzində dünya ölkələrində nobel mükafatına layiq görülən alimlərdən yalnız dördü məhz inkişaf etməkdə olan ölkələrin payına düşür ki, həmin alimlər də əslində öz ölkələrində tədqiqat aparmamış, daha çox Fransada, İngiltərədə və ABŞ-da fəaliyyət göstərmişlər.

Prosesə konkret olaraq Azərbaycan reallıqlarından yanaşsaq qeyd etmək lazımdır ki, respublikamızda milli iqtisadiyyatın ixtisaslaşma istiqamətini neft və neftlə yanaşı məhsulların istehsalı və ixracı təşkil etsə də, son illər qeyri-neft sektorunun inkişafı istiqamətində dövlət tərəfindən zəruri tədbirlər gerçəkləşdirilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında fərmanı və eləcə də həmin fərmana müvafiq olaraq ixracçılara təşviqlərin ödənilməsi mahiyyət etibarilə qeyri-neft sektorunda nəzərəçarpacaq irəliləyişlərin əldə edilməsinə gətirib çıxara bilər. Onu da nəzərə almaq lazımdır ki, respublikamızda qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində kifayət qədər potensial ehtiyatlar mövcuddur və bu ehtiyatlar daha çox kənd təsərrüfatı və emal sahəsinin, turizmin hesabına gerçəkləşdirilə bilər. Fikrimizcə postneft erasında respublikamızda qeyri-neft sektorunun inkişaf etdirilməsi mahiyyət etibarilə neftdən daxilolmaların alternativlərinin tapılmasına gətirib çıxara bilər və bu prosesisə bütövlükdə dövlətin sosial-iqtisadi qüdrətinin yüksəldilməsində əhəmiyyətli resurs mənbəyi kimi çıxış edə bilər.

Müasir şəraitdə hər bir ölkənin milli iqtisadiyyatının qarşısında duran ən mühüm vəzifələrdən biri qloballaşmanın doğurduğu neqativ təzahürlərin aradan qaldırılması və bu baxımdan iqtisadi təhlükəsizliyin təmin edilməsi ilə bağlı tədbirlərin gerçəkləşdirilməsidir. Fikrimizcə qloballaşma prosesinin doğurduğu destruktiv tendensiyaların aradan qaldırılması ilə bağlı milli iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə aşağıdakı tədbirlərin gerçəkləşdirilməsi məqsədəuyğun sayıla bilər:

- daxili bazarın effektiv şəkildə qorunması;
- ixracın strukturunda qeyri-neft məhsullarının xüsusi çəkisinin yüksəldilməsinə nail olunması;
- idxalı əvəzetmə siyasətinin gerçəkləşdirilməsi;
- iqtisadiyyatın sənaye və qeyri-sənaye sahələrinin modernləşməsi.

## İstifadə olunmuş ədəbiyyat:


1. Səmədzadə Z.Ə. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, 2009, 608 s.
2. Abbasov A.F. İqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyi-müasir dövrün qlobal təhdidlərindən biri kimi. Kooperasiya Elmi-praktiki jurnal 2021№3 (62) s.150-159.
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.